# Ziya Ağa Gənclər üçün Prezident mükafatına layiq görülüb



Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktyoru, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Sabah qruplarının 4-cü kurs tələbəsi Ziya Ağa Gənclər üçün Prezident mükafatına layiq görülüb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 fevral 2019-cu ildə imzaladığı sərəncama əsasən Prezident mükafatına layiq görülən Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən 10 gəncin arasında Ziya Ağanın da adı var.

Ziya Ağa 1991-ci ildə Ağdam şəhəri, Muradbəyli kəndində anadan olub. 2009-2015-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetində təhsil alıb. Hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Dram teatr və kino aktyoru" fakültəsində oxuyur. İlk dəfə 2013-cü ildə rejissor Pərviz Seyidlinin quruluş verdiyi festival üçün nəzərdə tutulmuş "Sus" qısa metrajlı bədii filmdə əsas rollardan birinə çəkilib. Daha sonra 2013-cü ildə İlqar Fəhminin ssenariləşdirdiyi "Qurbağa" adlı qısa metrajlı bədii filmə dəvət alıb və uğurlu obraz canlandırıb. "Arzuların ardınca" adlı tammetrajlı bədii filmində əsas obraza çəkilib. Ziya Ağa aktyor fəaliyyətində ilk öncə "Səda" Tədris Teatrının səhnəsində bir çox rolları ifa edib. Daha sonra bir müddət "Yuğ"dövlət teatrının nəzdində yerləşən laboratoriyada aktyor kimi fəaliyyətə başlayıb. Daha sonra Azərbaycan Respublikasının əməkdar artisti Vidadi Həsənovun yaratdığı "M-Teatr" da fəaliyyətini davam etdirib. 2017-ci ildə yaranmış müstəqil Human Teatrınında çalışıb. Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru, Xalq artisti Azər Paşa Nemətovun dəvəti ilə Akademik Milli Dram Teatrına dəvət olunub və hazırda Xəfiyyə Yerkökü ("Çipollino" C.Rodari),Ser Endryu Egüyçik "On ikinci gecə" (V.Şekspir), O, "Bir, iki, bizimki"(K.Abdulla), Leytenant Dmitri ("Sinif yoldaşları" Y.Polyakov) və s. tamaşalarda çıxış edir.

YUĞ Dövlət Teatrında İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş "Mənəm, mən" tamaşasında Nəsimi (Seyid Əli) obrazını canlandırıb. ADMİU-da hazırlanan "Otello" tamaşasında Otello, "Tiran Edip" tamaşasında Edip rollarında çıxış edib.

"Kaspi" qəzetinin "Teatr" əlavəsi adından Ziyanı təbrik edir, ona yeni yaradıcılıq uğurları arzulayırıq.

Kaspi 2020.- 13 fevral.- S.10.